# MƏTBUAT ÜÇÜN AÇIQLAMA

## ATİB İdarə Heyətinin Sədri beynəlxalq konfransda çıxış etdi

**No: 08/30/79**
**21.11.2008**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) İdarə Heyətinin sədri Ahmet Erentok 21 noyabr 2008-ci ildə Bakıda Avropa Otelində keçirilən "**İnvestisiya müqavilələrinin hüquqi aspektləri"** adlı beynəlxalq konfransda çıxış etmişdir.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnsan Hüquqları, Demokratiya və Sülh Problemləri üzrə YUNESKO Mərkəzi, Almaniyanın Kil Universiteti, Rusiyanın Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutu və Qazaxıstanın Əl-Fərabi adına Milli Universiteti ilə birgə həyata keçirilən "Azərbaycan, Qazaxıstan və Rusiyada xarici investisiyaların hüququ: maraqlar balansı" layihəsi çərçivəsində "İnvestisiya müqavilələrinin hüquqi aspektləri" mövzusundakı beynəlxalq elmi-praktik konfrans Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, Almaniya – Azərbaycan Ticarət Palatası (DAWF), Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) tərəfindən dəstəklənir.

Konfransda çıxış edən Ahmet Erentok bildirib ki, Azərbaycanda investisiya mühitinin təkmilləşdirilməsi istiqamətində davam etməkdə olan islahatlara və artıq əldə edilmiş nailiyyətlərə baxmayaraq qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi sahəsində hələ çox işlər görülməlidir: "İnvestisiya mühitinin yaxşılaşdırılması sahəsində uğurla həyata keçirilən proqramların əsas elementi dövlət və özəl sektor arasında dialoqun təşkilidir. Bu gün investisiya prosesinin fəallaşması və onun səmərəliliyinin artırılması məsələsi Azərbaycan Respublikasının gələcəyi üçün böyük əhəmiyyət kəsb edir".

Ahmet Erentok çıxışında qeyd edib ki, "Doing Business 2009" hesabatında Azərbaycan ilin islahatçı dövləti seçilmiş və 33-cü mövqeni qazanmışdır: "Bunun özü bir daha ölkədə investisiya və biznes mühiti ilə bağlı vəziyyətin yaxşılaşdırılması üçün atılan addımlardan xəbər verir. Lakin bütün bu nailiyyətlərə baxmayaraq investorların

hüquqlarının müdafisəi üçün hələ bir sıra işlər görülməlidir. Bəzi problemlərin həlli üçün işlək hüquq mexanizmlərinin effektiv fəaliyyəti mühümdür”.

Onun fikrincə, mühüm məsələlərdən biri, yerli sahibkarların və xarici investorların öz fəaliyyətləri ilə bağlı mübahisələr üçün mümkün həll mexanizmlərinin və yerli arbitraj sisteminin təkmilləşdirilməsidir: “Azərbaycanda tətbiqi fayda verə biləcək mexanizmlərdən biri də, korporativ mübahisələrin həllinin və korporativ etika normalarının qorunmasının iş adamlarının öz aralarında həll edilməsinə imkan verən strukturların formalaşmasıdır. Beynəlxalq praktikada biznes assosiasiyaların nəzdində mübahisələrin həlli və hüquqi vasitəçilik üzrə komissiyaların və ya alternativ məhkəmələrin formalaşdırılması təcrübəsindən geniş istifadə olunur”.

Ahmet Erentok daha sonra vurğulayıb ki, alternativ həll zamanı ən əsas məqam, bu prosesdə kimin vasitəşilik etməsidir: “Yəni vasitəçilik edən təsisat bütün tərəflərin maraqlarını təmsil edə bilən, obyektivliyinə şübhə olmayan bir təsisat olmalıdır. Belə bir qurum rolunda isə adətən bir çox biznes dairələrinin maraqlarının təmsil olunduğu biznes assosiasiyalar və ya sənaye-ticarət palataları çıxış edir”.

O çıxışının sonunda qeyd edib ki, Azərbaycanda bu sistemin tətbiq olunması üçün ilk öncə müvafiq hüquqi baza qurulmalıdır: “Təklif edərdik ki, ATİB daxil olmaqla bütün maraq tərfləri “Korporativ mübahisələrin alternativ həlli” haqqında qanun layihəsinin hazırlanmasına qoşulsunlar. ATİB bu işin əlaqələndiricisi kimi çıxış etməyə hazırdır”.

Qeyd edək ki, konfransın keçirilməsində məqsəd – Transsərhəd investisiya müqavilələrinin bağlanması, məzmunu və forması; Azərbaycanda xarici investisiyaların idarə edilməsinin ümumi mənzərəsinin (beynəlxalq müqavilələr və ölkədaxili tənzimləmələr) müzakirəsi; xarici investisiyalarla bağlı mühüm məsələlərin müzakirəsi üçün mütəxəssislərin, gənc alimlərin görüşlərinin təşkili və fikir mübadilələrinin aparılmasıdır.

Konfransda Almaniya, Fransa, İngiltərə, Rusiya, Qazaxıstan və bir neçə beynəlxalq təşkilatların ekspert və elm xadimləri məruzələrlə çıxış etdilər.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**